## *İştirakçıların nəzərinə!*

Fövqəladə Hallar Nazirliyinin Akademiyasında 27 may 2025-ci il tarixində saat 11:00-da Azərbaycan Xalq Cümhuriyyətinin 107-ci illiyi ilə əlaqədar təhsilalanların iştirakı ilə ***Fövqəladə hallarla mübarizədə yeni texnologiyaların tətbiqi"*** mövzusunda XII elmi-praktiki konfrans keçiriləcəkdir. Magistrant, kursant, tələbə və dinləyicilər konfransın içində iştirak etməyə dəvət olunurlar.

**Konfrans aşağıdakı bölmələri əhatə edir:**

- Həyat fəaliyyətinin problemləri.
- Yanğın təhlükəsizliyi problemləri.
- Təbiət elmləri və təhlükəsizlik problemləri.
- Fövqəladə hallardan müdafiənin hərbi və sosial problemləri.

**Konfrans materialları**

Konfransda iştirak etmək istəyənlər məruzə materiallarını ***12 may 2025-ci il tarixinədək sadiq.abdullayev@fhn.gov.az*** mail ünvanına göndərə bilərlər. Məruzələr məqalələr toplusunda daxil olunacaq, iştirakçılar sertifikatla təltif ediləcəklər.

**Məqalələrin tərtibi qaydaları**

Məqalənin mətni azərbaycan dilində, Times New Roman şrifti ilə 14 ölçüdə, bir intervalla yazılmalıdır. Səhifənin ölçüləri A4 (210x297mm) formatlı, yuxarı və aşağıdan 25 mm, soldan və sağdan 20 mm boş yer saxlamaqla çap olunur. Məqalənin həcmi 3-6 səhifədən çox olmamalıdır.

Məqalədə aşağıdakı ardıcıllıq gözlənilməlidir:

- UOT indeks (qalın, 11 ölçü, böyük hərflərlə, məqalənin yuxarısında, sol hissədə abzasdan yazılmalı);
- məqalənin adı (qalın, 12 ölçü, böyük hərflərlə yazılmalı, UOT indekslə məqalənin adı arasında iki interval buraxılmalıdır);
- müəllif(lər)in soyadı, adı, atasının adı (qalın,12 ölçü, kiçik hərflərlə yazılmalı, məqalənin adı ilə müəllif(lər)in soyadı arasında bir interval buraxılmalıdır);
- təşkilatın adı, ünvanı, E-mail (12 ölçü, kursiv, kiçik hərflərlə yazılmalı, müəllif(lər)in soyadı ilə təşkilatın adı, ünvanı, E-mail arasında bir interval buraxılmalıdır);
- **Giriş**
- **Məsələnin qoyuluşu**
- **Əsas hissə**
- **Nəticə**
- **İstifadə olunmuş ədəbiyyat**

Tənliklər və düsturlar mətndən bir boş sətirlə ayrılmalıdır. Düsturları, ardıcıl olaraq, sətrin sağ tərəfində dairəvi mötərizələrdə yerləşdirilmiş ərəb rəqəmləri ilə nömrələmək lazımdır. Məqalənin nəticələrində, elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və alınan əsas nəticələr aydın şəkildə verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla verilməlidir. Onlara istinad [1] və ya [1, s.95] kimi işarə olunmalıdır. Ədəbiyyat siyahısında son 5-7 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir. Əlyazmalar 2(iki) nüsxədə və elektron variantda təqdim olunur.

Ünvan: *Suraxanı rayonu Hovsan qəsəbəsi Elman Qasımov küçəsi-8, FHN-nın Akademiyası*
Əlaqə telefonu. *(012)512-41-58;(055)562-11-34*